# Dağlıq Qarabağ münaqişəsi zamanı girovluqdan700 nəfər azad olunub

## BQXK: "DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ NƏTİCƏSİNDƏ 4500 NƏFƏRDƏN ARTIQ İNSAN İTKİN DÜŞÜB, ONLARIN 80 FAİZİ HƏRBÇİDİR"




**BEYNƏLXALQ** Qızıl Xaç Komitəsi (BQXK) Dağlıq Qarabağ münaqişəsi zamanı girovluqda saxlanılaraq sonradan azad olunan şəxslərin sayını açıqlayıb. Məlumatına görə, 1992-ci ildən bəri təqribən 700 nəfər Azərbaycan və Ermənistan tərəflərinə qaytarılıb. Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Bakı nümayəndəliyində keçirilən tədbirdə bildirilib ki, girovluqdan azad edilənlər arasında hərbçilərlə yanaşı, mülki şəxslər də olub. Tədbirdə qeyd olunub ki, Dağlıq Qarabağ münaqişəsi nəticəsində 4500 nəfərdən artıq insan itkin düşüb. İtkin düşənlər münaqişə tərəflərindən olan müxtəlif vətəndaşlığı olan şəxslərdir. Həmin şəxslərin 3800 nəfəri BQXK-nin Bakı nümayəndəliyi, qalanları isə Yerevan nümayəndəliyi və Dağlıq Qarabağ missiyası tərəfindən qeydiyyata alınıb. Tədbirdə bildirilib ki, itkin düşənlərin 80 faizi hərbçilərdir.

Beynəlxalq Qızıl Xaç Komitəsi Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə birlikdə ötən il ərzində Dağlıq Qarabağ münaqişəsində itkin düşmüş şəxslərin yaxınlarından götürülmüş ağız suyu nümunəsi ilə bağlı statistikanı da açıqlayıb. Bildirilib ki,ötən il ərzində itkin düşmüş 775 nəfərin yaxınlarından 2170 ağız suyu nümunəsi götürülüb.

Qeyd edək ki, ağız suyu nümunəsi itkin düşmüş şəxslərin yaxınlarından götürülür və gələcəkdə mümkün ekshumasiya zamanı istifadə edilir.

***Könül***